## Səyyar qəbullar

# Kənddə qəbul

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərtib olunmuş qrafikə uyğun olaraq yerlərdə vətəndaşlarla görüş-qəbullar keçirir.





21 may tarixdə növbəti qəbul Mirzəbəyli kəndində keçirildi. Görüşdə ağsaqqallar, ziyalılar, ictimaiyyətin nümayəndələri iştirak edirdi.

Tədbiri açan kənd icra nümayəndəsi Araz Ağayev RİH başçısına kəndin ümumi vəziyyəti barədə məlumat verdi. Bildirdi ki, 639 ailə təsərrüfatında 2576 nəfər əhali yaşayır.

Əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq, meyvəçilik məhsulları istehsalıdır. Kənd əhalisi pay torpaqlarında buğda və arpa səpini ilə də məşğul olurlar.

Görülən işlərlə yanaşı kənddə problemlərin də olduğu bildirildi. Sakinlər tərəfindən bir ədəd artezian quyusunun qazılmasına, işıq dirəklərinin dəyişdirilməsinə, kəndə qaz xəttinin çəkilməsinə, bir ədəd yeni transformatorun quraşdırılmasına ehtiyac olduğu bildirildi.

Səbuhi Abdullayev kəndin problemləri ilə bağlı əhalinin arzu və təkliflərini, qaldırılan məsələləri dinləyərək aidiyyatı üzrə idarə və təşkilat rəhbərlərinə tapşırıqlar vermişdir.

Kənd ağsaqqallarından Daşdəmir Zakirov çıxış edərək bu görüşə gəldiyinə, problemlərin öyrənilməsinə, hətta bəzilərinin həllinə yerindəcə tapşırıq verdiyinə görə RİH başçısına minnətdarlığını bildirdi.

Sonda Səbuhi Abdullayev çıxış edərək, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, yeni iş yerlərinin açılmasının möhtərəm Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu qeyd etdi, kəndlərimizin inkişafının bundan sonra da davam edəcəyini bildirdi.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bir bölməsi olan Qəbələ Rayon Meşələrin Mühafizəsi və Bərpası Müəssisənin kollektivi may ayının 23-də Azərbaycan ekoloqlarının peşə bayramı münasibətilə şəhərin mərkəzi parkına toplaşmışdılar. Toplantıda rayon icra hakimiyyəti başçısının müavini, sosial-iqtisadi inkişafın proqnozlaşdırılması şöbəsinin müdiri Arif Allahverdiyev iştirak edirdi.



Bayram tədbiri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsi önünə tər qızıl gül dəstələri qoymaqla başladı. Bütün kollektiv abidə önündən keçərək ulu öndərin əziz xatirəsini yad etdi.

Arif Allahverdiyev çıxış edərək rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Ekologiya və Təbii Sərvətlər Nazirliyi İşçilərinin peşə bayramı münasibətilə təbrikini müəssisənin kollektivinə çatdırdı və çıxışında indiki və gələcək nəsillərin sağlamlığının təmin olunmasında, iqtisadi potensialımızın artırılmasında, təbii sərvətlərin qorunmasında onların qarşısında mühüm vəzifələr durduğunu qeyd etdi.

Rayon meşələrin mühafizəsi və bərpası müəssisəsinin direktoru Abdulla Kərimov çıxış edərək təbrik üçün rayon icra hakimiyyətinin rəhbərliyinə minnətdarlığını bildirdi və kollektivə göstərilən etimada layiq işləyəcəklərini qeyd etdi.

Sonda müəssisənin 5 nəfər fəal və qabaqcıl işçisinə rayon icra hakimiyyətinin fəxri fərmanı təqdim olundu.

**Nadir ATAKİŞİYEV.**
**Foto S. Umuyevindir.**

### *QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN İYUN AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ*

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Zalam kəndi | 04.06.2013 | Mədəniyyət evi, saat $11^{00}$ |
| Laza kəndi | 11.06.2013 | Kənd məktəbi, saat $15^{00}$ |
| Mıxlıqovaq kəndi | 18.06.2013 | Klub müəssisəsi, saat $11^{00}$ |
| Kiçik Pirəli kəndi | 25.06.2013 | Klub müəssisəsi, saat $11^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# Məktəblilər III beynəlxalq incəsənət sərgisində

Qəbələdə təşkil olunan üçüncü beynəlxalq incəsənət sərgisinin miinlərlə tamaşaçısı olmuşdur.

Sərgiyə tamaşa Daşca kənd tam orta məktəbinin müəllim və şagird kollektivlərinin də payına düşmüşdür. Sərgiyə baxış zamanı ümummilli lider Heydər Əliyevin nəfis xalça üzərində işlənmiş və Mustafa Kamal Atatürkün kresloda oturmuş vəziyyətdə portretləri, ölkənin birinci xanımı Mehriban Əliyevanın kətan üzərində işlənmiş portreti, «Qarabağdan gələn varmı?», «Xocalıdan olan qadın» və bir çox xarici qonaqların qədim tarixi əks etdirən və təbiət təsvirlərindən ibarət əsərləri tamaşaçıları hədsiz maraqlandırmışdır.

**Şöhrət SÜLEYMANOV.**

# Beynəlxalq Muzeylər Günü qeyd olundu

Muzeylər xalqın milli sərvətini—onun tarixini ən qiymətli miras kimi qoruyub saxlayır. Buna görə də ilk muzeyin yarandığı gün 18 may—Beynəlxalq Muzeylər Günü bütün dünyada qeyd olunur. Həmin gün rayon tarix-diyarşünaslıq muzeyinin işçiləri şəhərin mərkəzi parkına gələrək ulu öndər Heydər Əliyevin burada ucaldılmış abidəsi önünə tər gül dəstələri qoymuş və dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər.

Kollektiv buradan Heydər Əliyev Mərkəzinə gəlmiş və dahi şəxsiyyətin keçdiyi yolla bağlı stendlərlə tanış olmuşlar. Sonra tədbir rayon tarix-diyarşünaslıq muzeyində davam etmişdir.

Bayram tədbirini muzeyin direktoru Xalis Məmmədov açdı.

Tədbirdə RİH başçısı Səbuhi Abdullayevin muzey kollektivinə təbrik məktubu oxunmuşdur.

Muzeyin direktoru Xalis Məmmədov Beynəlxalq Muzeylər Gününün yaranması, rayonun tarix-diyarşünaslıq muzeyinin fəaliyyəti haqqında məlumat vermişdir.

Tədbirdə iştirak edən rayon icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova dünya muzeyləri və respublikamızda fəaliyyət göstərən muzeylər, buradakı eksponatların qorunub saxlanılması haqqında danışmış, həmçinin muzeyin daha da zənginləşməsi haqqında fikirlərini bildirmişdir.

Muzeyin əməkdaşlarından İlhamə Seyidova, Nigar Eldarova və başqaları bu muzeyin fəaliyyət göstərdiyi illərdə qarşılaşdığı çətinliklər, problemlər, onun qorunub saxlanılmasında muzey əməkdaşlarının, xüsusilə muzeyin direktorunun böyük və məsuliyyətli əməyi haqqında danışmışlar.

Tədbiri muzeyin direktoru Xalis Məmmədov yekunlaşdırdı.

**«QƏBƏLƏ».**